# AZƏRBAYCAN RESPUBLİKASININ
# NAZİRLƏR KABİNETİ

# Q Ə R A R

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 8 fevral tarixli 39 nömrəli Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının ali təhsil müəssisələrinə tələbə qəbulu Qaydaları"nda dəyişiklik edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikası Dövlət İmtahan Mərkəzinin təklifinə əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 8 fevral tarixli 39 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 2, maddə 292, № 10, maddə 1905; 2018, № 2, maddə 351, № 4, maddə 817, № 11, maddə 2432, № 12 (II kitab), maddə 2749; 2019, № 3, maddə 517; 2020, № 2, maddələr 183, 199, № 5, maddə 650, № 8, maddə 1108; 2021, № 8, maddə 969, № 9, maddə 1052) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının ali təhsil müəssisələrinə tələbə qəbulu Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

1. Aşağıdakı məzmunda 2.3-1-ci bənd əlavə edilsin:

"2.3-1. Abituriyentlər ali təhsil müəssisələrinə sənəd qəbulu zamanı III ixtisas qrupu üzrə elektron ərizə doldurarkən, öz istəklərinə uyğun olaraq ərizələrində təhsil almaq istədikləri ixtisas və ya ixtisaslara uyğun olan iki altqrupdan birini, yaxud hər iki altqrupu seçməlidirlər.".

2. 3.8-ci bəndin beşinci cümləsinə "İxtisas qrupları" sözlərindən sonra "və altqrupları" sözləri əlavə edilsin.

3. 3.8.3-cü yarımbənd aşağıdakı redaksiyada verilsin:

"3.8.3. III ixtisas qrupu:

3.8.3.1. dil-tarix (DT) altqrupuna daxil olan ixtisaslar üzrə - qəbul imtahanının dilinə uyğun olaraq, Azərbaycan dili və ya rus dili (nisbi əmsal:1,5), tarix (nisbi əmsal:1,5) və ədəbiyyat (nisbi əmsal:1);

3.8.3.2. tarix-coğrafiya (TC) altqrupuna daxil olan ixtisaslar üzrə - qəbul imtahanının dilinə uyğun olaraq, Azərbaycan dili və ya rus dili (nisbi əmsal:1,5), tarix (nisbi əmsal:1,5) və coğrafiya (nisbi əmsal:1);".

4. Aşağıdakı məzmunda 3.9-1-ci bənd əlavə edilsin:

"3.9-1. III ixtisas qrupu üzrə dil-tarix (DT) altqrupuna daxil olan ixtisasların müsabiqəsi ilə yanaşı, tarix-coğrafiya (TC) altqrupuna daxil olan ixtisasların müsabiqəsində də iştirak etmək istəyən abituriyentlər əlavə olaraq coğrafiya fənnindən fərq imtahanı verməlidirlər.".

5. Qaydalara 1 nömrəli əlavə - "İxtisas qrupları və ixtisaslar"ın III ixtisas qrupu sütunu "İxtisasların adı" sətrindən sonra "Dil-tarix (DT) altqrupu" və "Tarix-coğrafiya (TC) altqrupu" adlı iki sütuna bölünməklə aşağıdakı redaksiyada verilsin:

| **Dil-tarix (DT) altqrupu** | **Tarix-coğrafiya (TC) altqrupu** |
|---|---|
| 1. Azərbaycan dili və ədəbiyyatı müəllimliyi<br>2. Dil və ədəbiyyat müəllimliyi (dillər üzrə)<br>3. İbtidai sinif müəllimliyi<br>4. Korreksiyaedici təlim<br>5. Məktəbəqədər təhsil<br>6. Tarix müəllimliyi<br>7. Təhsildə sosial-psixoloji xidmət<br>8. Xarici dil müəllimliyi (dillər üzrə)<br>9. Dinşünaslıq<br>10. Dövlət və ictimai münasibətlər<br>11. Fəlsəfə<br>12. Filologiya (dil və ədəbiyyat göstərilməklə)<br>13. Hüquqşünaslıq<br>14. İslamşünaslıq<br>15. Jurnalistika* | 1. Beynəlxalq münasibətlər<br>2. Regionşünaslıq (regionlar üzrə) |

| | |
|---|---|
| 16. Kitabxanaçılıq və informasiya fəaliyyəti<br>17. Politologiya<br>18. Tarix<br>19. Tərcümə (dillər üzrə)<br>20. Bədii yaradıcılıq və ekran dramaturgiyası<br>21. Muzey, arxiv işi və abidələrin qorunması<br>22. Sənətşünaslıq (sahələr üzrə)<br>23. Sosial iş<br>24. İctimai təhlükəsizlik və idarəetmə | |

**Əli Əsədov**
**Azərbaycan Respublikasının Baş naziri**

Bakı şəhəri, 22 fevral 2022-ci il

№ 51